**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR NƏSRDƏ POSTMODERN PARADİQMASI (K.ABDULLANIN "SEHRBAZLAR DƏRƏSİ" VƏ X.KORTASARIN "XANA-XANA OYUNU" ROMANLARI ƏSASINDA)

İxtisas: 5715.01 – "Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid"

Elm sahəsi: Filologiya elmləri

İddiaçı: **Səbinə Elxan qızı Ağababayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Ədəbiyyat nəzəriyyəsi kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Rəhilə Hüseyn qızı Quliyeva**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Tahirə Qəşəm qızı Məmməd**

filologiya elmləri doktoru, dosent
**Şəfəq Nizami qızı Dadaşova**

filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
**Ülviyyə Həsaməddin qızı Rəhimova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Slavyan Universiteti nəzdində fəaliyyət göstərən FD 2.13 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor
**Fikrət Fətiş oğlu Cahangirov**

Dissertasiya şurasının elmi katibi: filologiya elmləri üzrə fəlsəfə doktoru
**Suad Arif qızı Əfəndiyeva**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
**Naidə Caməli qızı Məmmədxanova**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Postmodernizm bəşər tarixində bir-birini ardıcıl olaraq əvəz edən mədəni epoxaların sonuncularındandır. Çağdaş humanitar fikrin bütün sahələrinin diqqət mərkəzində saxladığı postmodernizm mürəkkəb bir anlayışdır. Belə ki, bu anlamı hər hansı bir sahəyə aid etmək, yalnız bir elm sahəsinə bağlamaq qeyri-mümkündür. Bunun əsas səbəbi postmodernizmin müəyyən zaman kəsiyində eyni anda müxtəlif elm sahələrində müşahidə olunmasıdır. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, müxtəlif sahələrdə müşahidə olunan postmodernizm həm nəzəri, həm də tarixi əsaslarına görə bir-birindən demək olar ki, fərqlidir.

Postmodernizm XX əsrin 50-ci illərinin sonlarından etibarən memarlıq, heykəltəraşlıq, rəssamlıq, kino, musiqi, ədəbiyyat kimi sahələrdə yayılmağa başlamışdır. Meydana gəldiyi vaxtdan etibarən postmodernizm ətrafında mübahisələr səngimək bilmir, demək olar ki, bu problem elmi-intellektual müstəvidəki müzakirələrin əsas mövzusunu təşkil edir. *"Postmodernizmin qavranılması problemi həm nəzəri aspektdə, həm də bədii praktikada ən aktual və mübahisəli problemlərdən biridir. İndiyədək "postmodernizm" termini tam formalaşmayıb və estetika və ədəbiyyatşünaslıq sahəsində bəzi təkrarlanan terminlərlə ("poststrukturalizm", "postavanqardizm", "transavanqard", və s.) birlikdə işlədilir. Bu onunla əlaqədardır ki, biz nisbətən yeni, hələ də kifayət qədər öyrənilməmiş, ideyaları təkmilləşməkdə davam edən mədəniyyət hadisəsi ilə qarşılaşmışıq*[1]. Postmodernizm ətrafındakı müzakirələrin bir qismində bu fenomenin XX əsrin ortalarında mədəniyyət və sivilizasiyanın böhranı nəticəsində yaranmış tarixi hadisə olması iddiası irəli sürülür. Digər bir qisim müzakirələrdə isə postmodernizm keçid dövrü kimi səciyyələndirilir, hər dövrün öz postmodernizminin olması fikri dəstəklənir: *"....postmodernizm transtarixi anlayışdır. Yəni hər dəfə istənilən böhran zamanı ortalığa çıxır (bu halda postmodernizmin səciyyəvi cəhətlərinə malik*

[1] Киреева, Н.В. Постмодернизм в зарубежной литературе: Учебный комплекс для студентов-филологов / Н.В. Киреева, – Москва: Флинта: Наука, – 2004. – 216 с., – с. 6.

*mədəniyyət meydana gəlir ki, o da böhranın həllində universal faktor qismində çıxış edir)"*[2]. Lakin qeyd etmək lazımdır ki, postmodernizm müəyyən bütövlüyə malik bir sistem kimi məhz müasir ədəbi prosesdə formalaşmışdır. Hər bir tarixi dövrün nə zamansa böhran yaşayacağı, böhran həddinə çatacağı qaçılmazdır. Bu baxımdan postmodernizm özündən əvvəlki mədəni epoxanın – modernizmin tükənməsinin, onun böhranının nəticəsi hesab edilir. Modernizm öz zamanında keçmişi inkar edərək onu məhv etmək istəyirdi. Lakin modernizm daha da irəli gedə bilməyəcəyi bir həddə çatanda – keçmişi tamamilə məhv edə bilməyəcəyi aydın olanda – onu keçmişi yeni baxış bucağından dəyərləndirən postmodernizm əvəz edir. Ümumiyyətlə, modern dönəmdən postmodern dönəmə keçid problemi davamlı müzakirə olunan, ortaq məxrəcə gəlinməsi çətin olan problemlərdəndir. *"Sosioloqlar, mədəniyyətşünaslar, filosoflar postmodern dünyanı "kapitalizm", "istehlakçılıq", "kütləvi informasiya vasitələri", "yeni texnologiyalar", "kommunikasiyalar", "kompüterləşmə" anlayışlarından istifadə edərək müəyyən edirlər"* [3].

Qeyd etmək lazımdır ki, XX əsrin ikinci yarısından etibarən dünyanın ümumi mənzərəsində çox mühüm dəyişikliklər özünü göstərməyə başlamışdır. Bu dövr mövcud mühitdəki və ənənəvi fəaliyyətlərdəki dəyişikliklərə doğru yönəlmiş, həmçinin postsənaye cəmiyyətinin formalaşmasını nəzərdə tutan qlobal sosial-mədəni tendensiyalarla xarakterizə olunurdu. *"XX əsrin ortalarından başlayaraq fəlsəfi ictimaiyyətin diqqəti müasir mədəniyyətin iki probleminə yönəlmişdir: qloballaşmanın təsiri altında vahid mədəni məkanın formalaşması (mədəni qloballaşma, mədəniyyətin qloballaşması) və postmodern mədəniyyətin, postmodern düşüncə tərzi – onun ideoloji əsasının inkişafı"* [4]. İnformasiya mübadiləsinin sürətlənməsi, telekommunikasiya və kompüter texnikasının geniş

---

[2] Postmodernizm: sənət hadisəsi, yoxsa mədəniyyətin təhlükəli törəməsi?: [Elektron resurs] / URL: https://kulis.az/xeber/edebi-tenqid/colorred Postmodernizm: color-snt-hadissi-colorredyoxsacolor-mdniyytin-thlukli-tormsi-30500

[3] Волков, В.Н. Постмодерн и его основные характеристики // Культурное наследие России, – 2014. № 5(2). – с.3-8., – с. 3.

[4] Гревцева, А.А. Постмодернистская парадигма культуры глобализирующегося мира: / автореферат диссертации на соискание ученой степени кандидата философских наук) / – Белгород, 2009. – 24 с., – с. 9.

yayılması, sənayeləşmə, qloballaşma, şəxsiyyətlərarası əlaqələrin getdikcə zəifləməsi, ətraf mühit problemləri, nüvə silahının yaradılması, dünya müharibələri, SSRİ-nin süqutu, terrorizm və s. kimi faktlar XX əsrdə dünyanın ümumi mənzərəsindəki qarmaqarışıqlıq və xaos haqqında ilkin təsəvvür yaratmağa kifayət edir. *"XX əsr dünya tarixində böyük təlatümlərin yaşandığı bir dövr kimi yadda qalmışdır"*[5].

Ümumiyyətlə, XX əsrin ortalarından etibarən olduqca təəccübləndirici, paradoksal hadisələrin şahidi oluruq. Belə ki, bir tərəfdən texniki tərəqqi, digər tərəfdən böhran vəziyyəti, özünü doğrultmayan İntibah və Maarifçilik idealları. O ideallar ki, insan imkanlarının sonsuz olduğunu, insan ağlının hər zaman qələbə çaldığını, bir sözlə, tərəqqini təbliğ edirdi. XX əsrin ikinci yarısından etibarən baş verənlər bu ideálların mənasız olduğunu açıq-aydın nümayiş etdirdi, sanki bir məyusluq dönəmi başlandı. Ümidsizlik, bədbinliklə yanaşı mövcud vəziyyəti dəf etmək üçün yeni dəyər axtarışları bir zərurətə çevrilmişdir. İlkin mərhələdə bu axtarışlar o qədər də asan olmamışdır, çünki mövcud reallıqlar və ənənəvi dəyərlər arasındakı əhəmiyyətli uyğunsuzluqlar özünü göstərirdi. Postmodernizm məhz bu xaos dönəminin yeni axtarışlarının nəticəsidir. *"Postmodernizm ilk növbədə, böhran mədəniyyətinin meydana çıxardığı cərəyandır. Düşüncədə, inamda, əxlaqda, təbiətdə və nəhayət, ruhda yaranmış böhranın nəticəsi"*[6].

Bir sözlə, postmodernizmi yalnız yeni reallıq, yeni şüur kimi deyil, eyni zamanda tarixə, keçmişə yenidən nəzər yetirən, onun xəttiliyini, determinizmini, bütövlüyünü rədd edən yeni fəlsəfə kimi də dəyərləndirmək olar. Postmodernizm bir növ totalitar dəyərlər sisteminin uzunmüddətli hökmranlığına qarşı əks reaksiyadır. *"İki dünya müharibəsi, faşizm, modernist meyillərdən doğan ümidsizlik, çıxılmazlıq sindromu mütləq həqiqətin inkarı olan postmodernizmə*

[5] Şimşek, M.E. Moderniteden postmoderniteye uzanan bir köprü: Zyqmunt Bauman / M.E.Şimşek. – Erzurum, – 2014. – 302 s., – s. 39.
[6] Akimova, E. "Yeni dünya" həqiqətləri – postmodernizm // Ədəbiyyat. – 2015, 5 dekabr. – s. 9.

*rəvac verdi”*[7]. Postmodern dönəmdə demək olar ki, əvvəlki bütün müsbət dəyərlər şübhə altına alınır.

Qeyd etdiyimiz kimi, XX əsrin ikinci yarısından etibarən dünyanın ümumi mənzərəsində baş verənləri anlamaq, dərk etmək üçün yeni dəyər axtarışları bir zərurətə çevrilmişdi. İlkin olaraq ABŞ-da yeni tendensiyalar axtarışları öz nəticəsini göstərməyə başladı. Belə ki, XX əsrin 50-ci illərinin ortalarından etibarən ABŞ-da ədəbiyyat və incəsənətin inkişafında özünü göstərən yeni meylləri izah etməyə ehtiyac duyulurdu. Getdikcə güclənən yeni meyllər mədəni paradiqma dəyişikliyinə səbəb oldu – modernizm öz yerini postmodernizmə verdi.

Postmodernizm ədəbiyyatda dil oyununun qeyri-məhdud imkanları ideyasını özündə ehtiva edir. İtalyan filosof, yazıçı Umberto Eko posmodernist fəlsəfənin yaradıcılarından biri hesab edilir. Jan Fransua Liotar, Jak Derrida və başqalarının fəlsəfi konsepsiyaları postmodernizm nəzəriyyəsinin əsasını təşkil edir. Con Bart, Don Dellilo, Culian Barns, Uilyam Gibson, Con Faulz, Milorad Paviç, Xorxe Luis Borxes, İtalio Calvino, Salman Rüşdü, Orxan Pamuk və digərləri postmodernizmin məşhur nümayəndələri hesab olunurlar.

Meydana gəldiyi vaxtdan etibarən postmodernizm Qərb, eləcə də Azərbaycan ədəbiyyatşünaslığında daima maraq doğurmuşdur. Qərbdə bu anlamla bağlı Jan Bodriyar, Mişel Fuko, Fredrik Ceymisson, İhab Hassan və başqalarının tədqiqatları diqqəti cəlb edir. Rus ədəbiyyatşünaslığında İlya İliyin, İrina Stepanovna Skoropanovanın, İrina Nikitinanın, Dmitri Xaustovun, Nataliya Kireyevanın postmodernizmlə bağlı tədqiqatları bu anlamın mənasını, mahiyyətini, nəzəri əsaslarını öyrənmək baxımından əhəmiyyətli mənbələr hesab edilir. Azərbaycan ədəbiyyatşünaslığında Qorxmaz Quliyev, Rafiq Yusifoğlu, Rəhilə Quliyeva, Asif Hacıyev, Naidə Məmmədxanova, Nərmin Kamal, Afaq Əsədova, Salidə Şərifova, Nizami Tağısoy, Tehran Əlişanoğlu,

---

[7] Babayev, Ü.A. Türkiyə və Azərbaycan postmodernist nəsrində sosial funksiya probleminin bədii ifadəsi: / filologiya üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı) / – Bakı, 2021. – 40 s., s.3.

Elnarə Qaragözova və digər görkəmli alim və tədqiqatçılar postmodernizmlə bağlı araşdırmalar aparmışlar.

Postmodernizm ədəbi və fəlsəfi bir cərəyan olaraq Azərbaycan ədəbiyyatşünaslığında müxtəlif aspektlərdən tədqiqata cəlb edilmişdir. Afaq Əsədovanın "Təsəvvüfdə və postmodernizmdə insan və sənət problemi" (filologiya üzrə elmlər doktoru dissertasiyası), Minaxanım Gözəlovanın "Postmodernizm ədəbiyyatında Şərq və Qərb (Orxan Pamuk nəsri əsasında)" (filologiya elmləri namizədi alimlik dərəcəsi dissertasiyası), Gilə Hüseynlinin "Çağdaş Amerika bədii ədəbiyyatında postmodernizmin inikas xüsusiyyətləri (Don Delillo və Pol Oster yaradıcılığı əsasında)" (filologiya üzrə fəlsəfə doktoru dissertasiyası), Almaz Ələkbərzadənin "Постмодернизм в современном литературном процессе (на материале русской и азербайджанской литературы)" (filologiya üzrə fəlsəfə doktoru dissertasiyası), Elnarə Qaragözovanın "XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında arxetipin yeni formaları" (filologiya üzrə fəlsəfə doktoru dissertasiyası), Ülvi Babayevin "Türkiyə və Azərbaycan postmodernist nəsrində sosial funksiya probleminin bədii ifadəsi" (filologiya üzrə fəlsəfə doktoru dissertasiyası), Könül Sadiyevanın "Postmodernizm ədəbiyyatında müəllif və müəllif mövqeyi problemi (XX və XXI əsrlərin qovşağında rus və Azərbaycan ədəbiyyatı materialları əsasında)" (filologiya üzrə fəlsəfə doktoru dissertasiyası) bu baxımdan əhəmiyyətli mənbələr hesab edilir. Xüsusilə qeyd etmək lazımdır ki, Salidə Şərifovanın "Çağdaş Azərbaycan postmodern romanı" monoqrafiyasında Azərbaycan postmodern nəsri haqqında dolğun məlumat verilmişdir.

Dissertasiya işində müasir nəsrdə postmodern paradiqması[8], yəni çağdaş nəsrdə postmodernizm probleminin qoyuluş modeli və nəzəriyyəsi Latın Amerikası ədəbiyyatının görkəmli nümayəndəsi Xulio Kortasarın "Xana-xana oyunu" (1963) və Azərbaycan ədəbiyyatında isə Kamal Abdullanın "Sehrbazlar dərəsi" (2006) romanları ilə tədqiq edilir. Artıq qeyd etdiyimiz kimi yerli ədəbi mühitdə postmodernizm müxtəlif aspektlərdən tədqiqata cəlb

---

[8] Paradiqma – misal, nümunə; problemin qoyuluş modeli və nəzəriyyəsi; anlayışlar sistemi.

edilmişdir. Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycan ədəbiyyatşünaslığında Latın Amerikası ədəbiyyatı, eləcə də Xulio Kortasarın yaradıcılığı geniş və ətraflı tədqiq olunmamışdır. Bununla yanaşı Xulio Kortasarın "Xana-xana oyunu" romanını və 3 hekayəsini – "Menadlar", "Bizi tərpədən şey", "Parkların aramsızlığı" – dilimizə tərcümə edən Nadir Qocabəyli "Xulio Kortasar. Seçilmiş əsərləri" kitabına "Arzular cəmiyyəti sorağında" başlıqlı yazdığı ön sözdə Kortasarın yaradıcılığı, eyni zamanda "Xana-xana oyunu" romanı haqqında ümumi məlumat vermişdir. Eləcə də Cavanşir Yusiflinin tərcüməsində kubalı yazıçı Alexo Karpentyerin "Müasir Latın Amerikası romanının problemləri" yazısı dərc olunmuşdur[9]. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin dəstəyi ilə 2014-cü ildə işıq üzü görən "Latın Amerikası romanı" kitabında qısa şəkildə Latın Amerikası ədəbiyyatı haqqında məlumat verilmiş, Latın Amerikası ədəbiyyatının görkəmli nümayəndələrindən nümunələr Azərbaycan dilinə tərcümə olunmuşdur.

Tədqiqat işində "Sehrbazlar dərəsi" və "Xana-xana oyunu" romanlarının seçilməsi təsadüfi deyil. Necə ki, Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığında Kamal Abdullanın əsərlərinin, xüsusilə də "Yarımçıq əlyazma" və "Sehrbazlar dərəsi" romanlarının təhlilindən sonra postmodernizmin dərin qatlarına maraq yaranmağa başlayır, eləcə də Latın Amerikası ədəbiyyatında Xulio Kortasarın "Xana-xana oyunu" romanı üslub və məzmun baxımından postmodernizmin təcəssümü kimi dəyərləndirilir. Belə ki, Kortasar klassik romanın süjet və kompozisiyasını darmadağın etməklə, ənənəvi təhkiyə formalarına və ədəbi priyomlara istehza etməklə Latın Amerikası ədəbiyyatında "yeni roman"ın[10] təməlini qoymuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini XX əsrin ikinci yarısından etibarən memarlıq, tarix, fəlsəfə, musiqi, ümumiyyətlə incəsənətin müxtəlif sahələrindəki elmi müzakirələrin əsas mövzusunu təşkil edən postmodernizm probleminin ədəbiyyatda, xüsusilə də nəsrdə inikası təşkil edir. Kamal Abdullanın

---

[9] "Ədəbiyyat" qəzeti, 2023-cü il 28 yanvar tarixli nömrəsi.

[10] "Yeni roman" – XX əsrin 50-60 –cı illərində bir sıra fransız yazıçıları tərəfindən mövcud bədii nəsrin strukturunu köklü şəkildə dəyişdirmək cəhdlərini ifadə edir.

“Sehrbazlar dərəsi” və Xulio Kortasarın “Xana-xana oyunu” romanları qoyulan problem kontekstində tədqiqata cəlb edilir. Beləliklə, Kamal Abdullanın “Sehrbazlar dərəsi” və Xulio Kortasarın “Xana-xana oyunu” romanları tədqiqat işinin predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi Kamal Abdullanın “Sehrbazlar dərəsi” və Xulio Kortasarın “Xana-xana oyunu” romanlarına ilə çağdaş nəsrdə postmodern paradiqması – postmodernizmin qoyuluş modeli və nəzəriyyəsi problemini tədqiq etməkdir. Bu məqsəddən irəli gələn vəzifələr aşağıdakılardır:

- XX əsrin ikinci yarısından etibarən meydana gələn, tamamilə fərqli bir dönəmin inikası olan postmodernizmin ədəbiyyatda təzahür xüsusiyyətlərini və nəzəri əsaslarını araşdırmaq;
- postmodern dönəm nəsrinin özəlliklərini müəyyənləşdirmək;
- postmodern nəsrdə polifoniya və təhkiyə probleminə aydınlıq gətirmək;
- postmodern paradiqma kontekstində çağdaş Azərbaycan ədəbiyyatının bədii xüsusiyyətlərinə aydınlıq gətirmək;
- Kamal Abdulla yaradıcılığının müasir ədəbi-bədii fikirdə yerini müəyyən etmək;
- Kamal Abdullanın “Sehrbazlar dərəsi” romanı ilə müasir Azərbaycan nəsrində postmodern poetikasının spesifikasını araşdırmaq;
- Xulio Kortasarın timsalında Latın Amerikası ədəbi-bədii fikrində postmodernizmin bədii xüsusiyyətlərini müəyyən etmək;
- “Xana-xana oyunu” romanını üslub və məzmun baxımından Latın Amerikası ədəbiyyatında postmodernizmin təcəssümü kimi dəyərləndirmək;
- “Sehrbazlar dərəsi” və “Xana-xana oyunu” romanları ilə Azərbaycan və Latın Amerikası postmodern nəsrinin oxşar və fərqli xüsusiyyətlərini müəyyən etməyə çalışmaq.

**Tədqiqat metodları.** Tədqiqat işinin elmi əsasını nəzəri təhlil, ümumi müddəalardan fərdi nəticələrə – ümumidən xüsusiyə keçidi əks etdirən deduktiv metod təşkil edir. Müasir nəsrdə postmodern paradiqması probleminə tədqiqat işinin predmetini təşkil edən “Sehrbazlar dərəsi” və “Xana-xana oyunu” romanlarının nəzəri, həmçinin bədii-psixoloji təhlili əsasında aydınlıq gətirilir. Tədqiqat

predmeti kimi seçilən "Sehrbazlar dərəsi" və "Xana-xana oyunu" romanları postmodernist təhlil prinsipləri və terminoloji aparatı ilə təhlil edilir. Tədqiqatda postmodernizm, onun xarakterik xüsusiyyətləri haqqında məlumat verildikdən sonra "Sehrbazlar dərəsi" və "Xana-xana oyunu" romanlarında postmodern paradiqmasının müəyyənləşdirilməsi zamanı deduktiv metod tətbiq edilir. Eyni zamanda dünya, eləcə də Azərbaycan ədəbiyyatşünaslığında postmodernizmə dair fikir və mülahizələrin araşdırılması zamanı müqayisəli-tipoloji metod tətbiq edilir. Tədqiqatda qoyulan problem tarixi xarakter daşıdığından (belə ki, postmodernizm yalnız ədəbi cərəyan deyil, eyni zamanda dövrün, zamanın ümumi ruhi vəziyyətdir), eləcə də problemin müəyyən bir tarixi mərhələni əhatə etməsi məsələnin tarixi-müqayisəli aspektdə öyrənilməsini zəruri edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiə üçün tədqiqatda aşağıdakı müddəalar irəli sürülür:

- Postmodernizm XX əsrin ikinci yarısından etibarən bədii ədəbiyyatda mühüm dəyişikliklərə səbəb olmuş, gerçəkliyin dərkinə yeni yanaşma gətirməklə bədii əsərin ənənəvi funksiyasını dəyişmişdir;
- Struktur baxımından postmodern mətnlərdə süjet, məkan, zaman arasında ardıcıllıq pozulur, tez-tez fasilələr, boşluqlar müşahidə olunur;
- Azərbaycan ədəbiyyatında postmodernizm birmənalı qarşılanmamış, onun yerli ədəbi mühitə gətirdiyi yeni üslub və struktur dəyişiklikləri çoxsaylı müzakirələrə səbəb olmuşdur;
- Kamal Abdulla Azərbaycan postmodernizminin əsas yaradıcılarından biri olub, Qərb postmodernizmini milli-mənəvi dəyərlərlə uzlaşdırmış və "Sehrbazlar dərəsi" romanında bu yanaşmanı orijinal fəlsəfi-estetik çalarlarla əks etdirmişdir;
- Latın Amerikası ədəbiyyatında magik realizm postmodernizmin təzahürünün ilkin mərhələsi kimi dəyərləndirilir, postmodernizmin daxilində diqqət çəkən əsas xüsusiyyətlərin magik realizmlə bağlı olması xüsusi vurğulanır;
- Latın Amerikası "bum"unun əsas simalarından biri olan Xulio Kortasarın ənənəvi romanın süjet xəttini tamamilə alt-üst edən

“Xana-xana oyunu” romanı Latın Amerikası ədəbiyyatında postmodernizmin təcəssümü kimi qəbul edilir.

**Tədqiqatın elmi yeniliyi.** Qeyd etdiyimiz kimi, dissertasiyada postmodernizmin təşəkkül tarixi, mahiyyəti, xarakterik xüsusiyyətləri, nəzəri əsasları, Kamal Abdulla və Xulio Kortasarın yaradıcılığı, xüsusilə də tədqiqat predmeti kimi götürülən “Sehrbazlar dərəsi” və “Xana-xana oyunu” romanları ətraflı şəkildə təhlil olunur. Bu iki yazıçının yaradıcılığının bir araya gətirilməsi, “Sehrbazlar dərəsi” və “Xana-xana oyunu” romanlarının Azərbaycan və Latın Amerikası ədəbiyyatında postmodernizmin təşəkkülü və inkişafı kontekstində yeri və təhlili dissertasiya işinin elmi yeniliyi olaraq müəyyən olunur.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya çağdaş nəsrdə postmodernizm probleminin qoyuluş modelini, bu problemin Latın Amerikası və Azərbaycan ədəbiyyatında inikasına dair nəzəri baxışları əks etdirir. Bu dissertasiya işinin nəticələri, çağdaş ədəbiyyatın postmodernist yanaşmalarını və həmin yanaşmaların Azərbaycan və Latın Amerikası ədəbiyyatına necə tətbiq edildiyini başa düşmək üçün əlavə bir qaynaq olaraq istifadə edilə bilər.

Dissertasiyadan ədəbi istiqamət və cərəyanlarla bağlı araşdırma aparan, eləcə də ədəbiyyatın müasir mərhələsini tədqiq edən, ümumən dövrün fəlsəfəsi və ifadə forması ilə maraqlanan tədqiqatçılar yararlana bilərlər. Tədqiqatın nəticələrindən Azərbaycan və dünya ədəbiyyatının müasir dövrünün tədrisi prosesində, eyni zamanda ədəbiyyatda postmodernizm problemi ilə bağlı xüsusi kursların təşkilində yardımçı dərs vəsaiti kimi universitetlərin filologiya fakültələrində istifadə etmək olar.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işində irəli sürülən fikir və mülahizələr Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi yerli jurnallarda, müxtəlif xarici ölkələrin müvafiq nüfuzlu jurnallarında nəşr olunan elmi məqalələrdə, həmçinin 13-ü beynəlxalq statuslu olmaqla 19 elmi konfransın materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Slavyan Universitetinin Ədəbiyyat nəzəriyyəsi kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, hər fəsil iki paraqrafa bölünməklə üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş 9 səhifə – 17204 işarə, I fəsil 49 səhifə – 100176 işarə, II fəsil 35 səhifə – 70316 işarə, III fəsil 39 səhifə – 79470 işarə, nəticə 6 səhifə – 11149 işarə. Dissertasiya işi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, ümumilikdə – 278315 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**Giriş**də mövzunun aktuallığı əsaslandırılmış, öyrənilmə səviyyəsi təhlil edilmiş, dissertasiya işinin metodoloji əsasları, elmi yeniliyi göstərilmiş, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti müəyyənləşdirilmişdir.

Dissertasiya işinin **"Postmodernizmin ədəbiyyatda mahiyyəti və xarakterik xüsusiyyətləri"** adlı I fəsli iki paraqrafdan ibarətdir. Fəslin ***"Postmodernizmin təşəkkül tarixi və nəzəri əsaslarına ümumi baxış"*** adlı birinci paraqrafında postmodernizmin yaranma səbəbləri və tarixi kontekstinə ümumi nəzər yetirilmiş, postmodernizmlə modernizmin əlaqəsi, əsas xüsusiyyətləri və nəzəri əsasları barədə məlumat verilmişdir.

Postmodernizmin ilk rüşeymlərinin müşahidə olunduğu vaxtdan etibarən bu anlam ətrafındakı diskurslar demək olar ki, elmi-intellektual mühitlərdə müzakirə olunan mövzular arasında birinci sıralarda yer tutur. *"Bəzi nəzəriyyəçilərin guya postmodernizmin "...öz mövqeyini itirdiyi və bu gün kifayət qədər durğun bir varlığa sürükləndiyi" və "postmodernistlərin müasir strukturlarının müasir incəsənət tarixinin inkişaf tendensiyalarının öyrənilməsi baxımından aktual olmadığı" iddialarına baxmayaraq, postmodernizm problemi onilliklər ərzində elmi dairələrdə ən çox müzakirə olunan problemlərdən biri kimi aktual olaraq qalır"* [11]. Postmodernizm izahı çətin bir anlayışdır. Demək olar ki, postmodernizmə dair aparılan

---

[11] Александрович, И.Е. Эпистемологические проблемы постмодернистской философии истории: / автореферат диссертации на соискание ученой степени кандидата философских наук) / – Чебоксары, 2010. – 24 с., – с.3.

tədqiqatlarda, yazılan yazıların birinci cümləsində onun mənasının “modernizmdən sonra” anlamına gəldiyi vurğulanır.

Postmodernizm önündəki “post” prefiksi ilə modernizmdən sonrakı dönəmi, yəni modernizmin gələcəyini nəzərdə tutur. Postmodernizm modernizmi onun davamçısı, varisi, eyni zamanda əleyhdarı olaraq izləyir. Bu proses də olduqca təbiidir. Belə ki, *“incəsənətdə mövcud olan cərəyanlar ya bir-birinin davamı, ya da inkarı kimi meydana çıxır. Yeni fikirlər və ideyalar, adətən özündən əvvəl yaranan və ömrünü başa vurmaqda olan sənət cərəyanının zəminində formalaşır. Antik dövrdən müasir dövrə qədər bu ənənə əsasən qorunub saxlanılıb. Estetikasına, mahiyyətinə görə hər nə qədər bir-birindən fərqlənsələr də, əksər cərəyanların müəyyən mənada biri-biri ilə əlaqəsi olub. ..... postmodernizm cərəyanı da modernizmin törəməsi və ya inkarı kimi meydana çıxıb”*[12]. Bir tərəfdən modernizm postmodernizmin geniş yayılması, çiçəklənməsi üçün şərait yaradır. Bu mənada *“postmodernizmə modernizmin yeni sosial-mədəni şəraitdə davamı kimi baxmaq olar”*[13]. Belə ki, postmodernizm mövcud mədəni formalara meydan oxumaqla bəzi modern ideyaların davamçısı təsirini bağışlayır.

Postmodernizm ənənə və dəyərləri yeni baxış bucağından dəyərləndirir. Həmçinin reallığın yeni dərkinə nail olmaq istəyir. Beləliklə, postmodernizmi gerçəkliyin tamamilə yeni, fərqli dərkinin əksi hesab etmək olar.

Alimlər arasında bu anlayışın tarixi, ilk dəfə nə zaman işlənməsi barədə fikir ayrılıqları mövcud olsa da, ümumi fikir postmodernizmin 1930-cu illərdə meydana gəlməsi ilə bağlıdır. Lakin 1970-ci illərə qədər postmodernizm xüsusi diqqət cəlb etməmişdir. Salidə Şərifova postmodernizmlə bağlı müzakirələrin Fransada 1960-cı illərin sonlarından, Amerika və Yaponiyada isə 1970-ci illərdən etibarən artdığını vurğulayır[14]. Postmodernizmin genezisi ilə bağlı ümumi mənzərə bəşər tarixində İkinci Dünya

---

[12] Əmirova, N. Postmodernizmin tarixinə və mahiyyətinə bir nəzər: [Elektron resurs] / URL: https://kulis.az/xeber/edebi tenqid/xeber___________________________-22774

[13] Nikitina, İ. Postmodernist sənət: [Elektron resurs] / tərc. ed. Ə.Cahangir.; – URL: // http://archive.azyb.az/cgi-bin/jurn/main.cgi?id=767

[14] Şərifova, S. Çağdaş Azərbaycan postmodern romanı / S.Şərifova. – Bakı: Elm və təhsil, – 2015, – 104 s., s.4.

Müharibəsindən sonra postmodern dönəmin başlandığını deməyə əsas verir.

***"Postmodern nəsrdə polifoniya və təhkiyə problemi"*** adlı ikici paraqrafda postmodern dönəm ədəbiyyatının, xüsusilə də nəsrin əsas xüsusiyyətləri şərh olunur. Eyni zamanda postmodernizm ədəbiyyatında çoxsəsli struktura (polifoniyaya) və mürəkkəb təhkiyə üsullarına nəzər yetirilir.

Postmodern mətnlərdə diqqəti cəlb edən ən önəmli xüsusiyyətlərdən biri də polifoniyadır. Birdən çox təhkiyəçinin olduğu postmodern ədəbiyyatda polifoniya əsasən təhkiyəçi sayı ilə təyin olunur. *"Bədii əsərlərdə polifoniya elə bir mətndir ki, burada müəllif səsi ilə bərabər başqa səslər də mövcuddur. Bu səslər müəllif səsi ilə qarışaraq, aralarında mürəkkəb dialoji münasibətlər yaradır. Musiqi termini olan «polifoniya»nı bədii mətnin təhlilinə ilk dəfə M.M.Baxtin gətirmişdir"*[15]. Polifoniya məşhur rus filosofu, ədəbiyyatşünası Mixail Baxtinin dialogizm nəzəriyyəsi ilə bağlı ədəbi konseptuallaşdırmadır. Mixail Baxtin dialogizmi monoloji düşüncə tərzinə əks cavab olaraq yaratmışdır. Baxtin dialogizmi bir tərəfdən əsas təhkiyəçi ilə digər personajlar arasında qarşılıqlı ünsiyyət vasitəsi, digər tərəfdən isə bir personajın daxili dialoqu hesab edirdi. Polifoniya bu dialogizmin ədəbi əksidir. Baxtin bütün əsərlərin polifonik keyfiyyətə malik olduğu fikrini irəli sürürdü. Postmodernizm ədəbiyyatında təhkiyəçi sayının çoxluğu mətnin formal xüsusiyyətlərindən biri olmaqla yanaşı, eyni zamanda çoxsəsliliyin ifadəsidir.

Postmodernizm üslubunda qələmə alınmış əsərlər klassik əsərlərdəki ardıcıllıqdan tamamilə uzaq olurlar. Məhz bu səbəbdən bu əsərləri ənənəvi təhlilin tədqiqat obyekti kimi götürmək olmur. *"Bu cərəyanın tərəfdarları ədəbi-bədii nümunələrin ümumən ədəbi prosesin təhlilində "dünya xaos kimi", "postmodernist həssaslıq", "dünya mətn kimi", intertekstuallıq, "nüfuzluların böhranı", epistemoloji tərəddüd, müəllif maskası, ikili kod, təhkiyənin parodik modusu, pastiş, ziddiyyətlilik, diskretlik, təhkiyənin fraqmentarlığı, metatəhkiyə və sairə*

[15] Şərifova, S. Klassiklər və müasirlər söz müstəvisində / S.Şərifova. – Bakı: Elm və təhsil, – 2018. – 568 s., s.232

*özümlü anlayışlardan istifadə edirlər”*[16]. Postmodernizmə xas terminlər bu üslubda yazılmış əsərlərin təhlilində əsas vasitə rolunu oynayır. Ümumiyyətlə, postmodernizmin metodoloji aparatı ilə bağlı İlya İlinin qeydləri olduqca maraqlıdır. İ.İlin yazır: *“Postmodern tənqid yalnız postmodernizmin ədəbi cərəyan kimi spesifik xüsusiyyətlərini müəyyən etmək və təsbit etməkdən kənara çıxaraq postmodern mətnlərin təhlili və qiymətləndirilməsi üçün hazırladığı metodologiyanı müxtəlif dövrlərin bədii əsərlərində tətbiq etməyə başlayanda digər mövcud məktəblər arasında özünə yer tapa bildi”* [17]. Bu baxımdan biz postmodernizmi yalnız ədəbi cərəyan kimi deyil, eyni zamanda müasir ədəbiyyatşünaslıqda təhlil və tədqiqat üsulu kimi də qiymətləndirə bilərik.

*Birinci fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb*[18].

---

[16] Quliyev, Q. Postmodernizm və bədii ədəbiyyat: [Elektron resurs] / URL: https://525.az/site/?name=xeber&news_id=65297#gsc.tab=0

[17] Ильин, И.П. Постмодернизм от истоков до конца столетия: эволюция научного мифа: [Электронный ресурс] / URL: http://www.lib.ru/ CULTURE/ILIN/postmodern.txt

[18] Ağababayeva, S.E. Postmodernizmin təşəkkül tarixinə ümumi baxış // Filoloji elmlər innovativ tədqiqatlar kontekstində Beynəlxalq elmi-praktik konfrans, - Bakı Slavyan Universiteti: – 24 dekabr, – 2020. – s.24-26; Postmodernizmə dair // Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi” mövzusunda multidissiplinar Respublika elmi-praktik konfransı, – Qərbi Kaspi Universiteti: – 01 may, – 2021. – s.35-37; N.Gəncəvi yaradıcılığında və postmodern ədəbiyyatda insan problemi // “Dil, cəmiyyət, şəxsiyyət və Nizami Gəncəvi yaradıcılığı” mövzusunda beynəlxalq elmi konfrans, – Sumqayıt Dövlət Universiteti: – 28-29 oktyabr, – 2021. – s.227-230; Postmodernizmdə insan konsepsiyası // V. International Conference on Awereness Language and Awareness, – Rating Academy: – 10-12 December, – 2021. – s.261-264; Postmodernizmdə “müəllifin ölümü” konsepsiyası // I Beynəlxalq Humanitar və İctimai Elmlərin Əsasları Konfransının Materialları, - Azərbaycan Elm Mərkəzi: – 24 dekabr, – 2021. – s.173-175; Postmodernizm ədəbiyyatında pastiş // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş Gənc tədqiqatçıların VI Beynəlxalq elmi konfransı, – Bakı Mühəndislik Universiteti: – 29-30 aprel, – 2022. – s.1301-1303; Postmodernizmdə simulasiya və simulakr anlamları // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “Azərbaycanşünaslığın aktual problemləri” XIII Beynəlxalq elmi-praktik konfrans, – Bakı Slavyan Universiteti: – 04-05 may, – 2022. – s.155-158;

Dissertasiya işinin **"Azərbaycan ədəbiyyatında postmodernizmin təzahürü"** adlı II fəsli iki paraqrafdan ibarətdir. ***"Müasir Azərbaycan nəsrində postmodernizm konsepsiyası"*** adlı birinci paraqrafda Azərbaycan ədəbiyyatında postmodernizmin təzahürü, postmodernizmin milli ədəbi mühitə gətirdiyi yeniliklər, yerli ədəbiyyatşünaslıq və tənqiddə postmodernizmlə bağlı müzakirələr, eyni zamanda Azərbaycan postmodern nəsrinin özünəməxsus xüsusiyyətləri barədə məlumat verilmişdir.

Dünya ədəbiyyatı və ədəbiyyatşünaslığında olduğu kimi, postmodernizm Azərbaycan ədəbiyyatında da dövrün dəyişikliklərinə əsasən təşəkkül tapmışdır. Təzahür etdiyi vaxtdan etibarən ətrafında mübahisələrin səngimədiyi postmodernizm yerli ədəbi mühitdə birmənalı qarşılanmamışdır. *"Müasir Azərbaycan ədəbi nəzəri fikrində postmodernizmə münasibət birmənalı deyil. Bəzi mütəxəsislər və yazarlar bu cərəyanın müsbət yönümlü olmasını qeyd edərkən, digər bir qrup isə nunun anlaşılmaz, sənətdən uzaq "əllaməlikdən" ibarət, xalqın milli-mənəvi dəyərlərinə qarşı*

---

Postmodern ədəbiyyatın özəllikləri // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş doktorantların və gənc tədqiqatçıların Respublika elmi-praktiki konfransı, – Odlar Yurdu Universiteti: – 05-06 may, – 2022. – s.813-816; Postmodernizm poetikasında rizom // Qloballaşma dövründə türk dünyası: çağırışlar, perspektivlər Beynəlxalq tələbə elmi konfransı, – Xəzər Universiteti: – 26-27 may, – 2022. – s.341-345; Postmodern ədəbiyyatda dil // Azerbaijani Oriental Studies in the Context of East-West Scientific-Cultural & Socio-Political Dialogue. International conference, - Bakı Dövlət Universiteti: 14-15 dekabr, – 2022. – s.294-295; Oyun anlamı postmodern ədəbiyyatın baxış bucağında // I Respublika elmi konfransının materialları, – Qədim Diyar / Beynəlxalq onlayn elmi jurnal / İmpakt Faktor: 0.652: 16 dekabr, – 2022. – s.5-6; Polyphony in literature – contemporary postmodern prose // – Georgia, Kutaisi: "Contemporary İssues of Literary Criticism Literatures of Small Countries and Challenges of the Modern Global World" XVII İnternational Symposium, – 2024. – pp. 25-26; Polyphony in literature – contemporary postmodern prose (based on the novels "The Valley of Wizards" by Kamal Abdullah and "Hopscotch" by Julio Cortazar) // – Georgia, Tbilisi: Contemporary İssues of Literary Studies. Shota Rustaveli İnstitute of Georgian Literature, – 2024. №17, – pp.653-659; Disrupting the Canon: Postmodernism's Rejection of Modernism in Azerbaijani Literature – United Kingdom, London: Iccees XI World Congress. UCl-University College London, – 20-26 July, – 2025. – p. 85.

*yönəlmiş təxribat xarakterli nəzəriyyə olduğunu qeyd edirlər"*[19]. Postmodernizmin başlanğıc mərhələdə əsasən tənqidi münasibətə məruz qalmasının əsas səbəbi birbaşa olaraq bu fenomenin əsas xüsusiyyətləri ilə bağlı idi. Belə ki, postmodernizmin qaydalara tabe olmayan, bütün çərçivələrdən azad, tarixi keçmişə və ənənələrə fərqli yanaşması birmənalı olaraq "bəşəriyyəti fəlakətə sürüklədiyi" iddialarına əsas verirdi. Bu mənada postmodernizmin özünü göstərdiyi bütün incəsənət sahələrinin də gələcəyinə şübhə ilə yanaşılmağa başlandı. Postmodernizmin özü ilə bərabər gətirdiyi yeniliyi qəbul edə bilməyənlər bu fenomenin bəşəriyyət üçün heç də uğurlu olmayacağı fikrini irəli sürürdülər. Ədəbiyyatda da postmodernizm ənənə və müasirlik tərəfdarlarının mübarizəsindən "yaxasını qurtara bilməmişdir". Məhz bu səbəbdən Qərbdə olduğu kimi, Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığında da ilkin mərhələdə postmodernizm daha çox tənqid edilirdi.

Azərbaycan ədəbiyyatında postmodern üslubda yazılan ilk əsərlərə nümunələr gətirən Salidə Şərifova yazır: "*Kamal Abdullanın "Yarımçıq Əlyazma" romanı, Həmid Herisçinin "Nekroloq", Kəramət Böyükçölün "Çöl", İlqar Fəhminin "Qarğa Yuvası", Əli Əkbərin "Amneziya", Pərviz Cəbrayılın "Yad Dildə", Aqşin Yeniseyin "Göləqarğısancan", Nərmin Kamalın "Aç, mənəm" və digər yazarların qələmə almış olduqları əsərlər postmodern üslubda yazılmış əsərlər kimi diqqəti cəlb edir"*[20].

Ənənəvi ədəbiyyatın sərhədlərini alt-üst edən, milli ədəbiyyatımıza yeni baxış, müəllif – oxucu münasibətlərinə, bədii əsərə yeni yanaşma nümayiş etdirən bu əsərlər həqiqətən də işıq üzü gördükləri ilk dönəmlərdə ədəbiyyatşünas və tənqidçilərin etirazları ilə qarşılanmışdır. Çünki postmodernizm qeyri-müəyyən bir məfhum olduğu üçün həmin üslubdakı əsərlərin də mənasız, xaotik olduğu fikri bu etirazlara bir növ haqq qazandırırdı. Lakin postmodernizmlə bağlı tədqiqatlar genişləndikcə, bu üslubdakı əsərlər təhlil olunduqca demək olar ki, postmodernizmin Azərbaycan ədəbiyyatındakı

[19] Qaragözova, E. XXI əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında arxetipin yeni formaları: / filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2016. – 138 s., s. 95.
[20] Şərifova, S. Çağdaş Azərbaycan postmodern romanı / S.Şərifova. – Bakı: Elm və təhsil, – 2015, – 104 s., – s. 20.

mövqeyinə, yerli ədəbi mühitə gətirdiyi yeniliklərə münasibət bir qədər dəyişdi.

***"Kamal Abdullanın "Sehrbazlar dərəsi" romanında postmodern poetikasının özəllikləri"*** adlı ikinci paraqrafda Azərbaycan postmodern ədəbiyyatının yaradıcılarından hesab olunan Kamal Abdulla yaradıcılığına ümumi nəzər yetirilmiş, tədqiqat predmeti kimi seçilmiş "Sehrbazlar dərəsi" romanının qoyulan problem kontekstində təhlili nəticəsində postmodernizmin yerli ədəbi mühitdə qazandığı spesifik xüsusiyyətlər müəyyənləşdirilmişdir.

Azərbaycan ədəbiyyatında postmodernizmin mahiyyətinə dəlalət edən ilk ədəbi-bədii nümunələrin yaradıcısı kimi Kamal Abdulla müasir Azərbaycan ədəbiyyatına tamamilə yeni bir nəfəs gətirmişdir. Ədib ustalıqla ənənəvi mətnlər, ənənəvi mövzular üzərində dəyişikliklər edərək onları zamanın dəyərlərinə, dərketmə səviyyəsinə uyğun şəkildə yenidən şərh edir. Bu baxımdan əminliklə qeyd etmək olar ki, Kamal Abdulla yaradıcılığının ən səciyyəvi cəhəti – hansı ki, postmodern ədəbiyyatın da əsasını, "onurğa sütunu" təşkil edir – hər hansı bir mətni yeni mənalarla müxtəlif kontekstlərdə istifadə etməkdir. Kamal Abdullanın yaradıcılığı mövzu baxımından öz rəngarənliyi ilə seçilir, quruluş və diskurs baxımından da fərqlilik nümayiş etdirir. İlk baxışda hər biri ayrı əsər təsiri bağışlasa da, Asif Hacılının təbirincə desək Kamal Abdullanın yaradıcılığı əslində "bütöv bir mətndir" –*"Kamal Abdullanın ədəbi yaradıcılığı müxtəlif janrlı əsərlərdən (şeir, hekayə, esse, roman, pyes, tərcümə) ibarət zəngin bir mənzərə yaratsa da mənim üçün elmi araşdırmalarını da (hətta ictimai-təşkilati fəaliyyətini) daxil etdiyim bütöv bir Mətndir. Dünyanı (şüuru) bir mətn kimi qavrayan poststrukturalistsayaq yanaşsaq, Kamal Abdullanın yaratdığı bu Mətn özündə yetərli işarəvi aləm olmaqla yanaşı, siqləti ilə geniş mənada milli-mədəni kontekstin ayrılmaz və aktual hissəsinə çevrilmişdir"* [21] . Ədibin əsərlərini oxuyan oxucular fərqli mətn fraqmentlərində oxşar, bir-birinə qarışan elementlərlə rastlaşırlar. Əvvəlki əsərlərdə yarımçıq qalan hər hansı bir mətləb, hadisə, hansısa obrazın taleyi sanki bir sonrakında tamamlanır. Heç şübhəsiz

[21] Hacılı, A. Kamal Abdulla: seçimin morfologiyası / A.Hacılı. – Bakı: Mütərcim, – 2010. – 132 s., – s. 3.

ki, ədibin əsərlərindəki tematik müxtəliflik postmodern dünyagörüşünün, postmodern yanaşmanın nəticəsidir.

Tarix, mədəniyyət, dinin vəhdət təşkil etdiyi, nağıl, dastan, əfsanə, eyni zamanda mifoloji elementləri özündə cəmləşdirən "Sehrbazlar dərəsi" (2006) romanı postmodern nəsrin əsas elementlərini özündə ehtiva edir. Romanda klassik ədəbi nümunələrdəki ardıcıllığın pozulduğu aydın müşahidə olunur. Belə ki, bir-birilə əlaqəsi olmayan bir neçə zaman diliminin bir-birini əvəzləməsi, eləcə də qeyri-adi məkan quruluşu əsərin əsas özəlliyini təşkil edir. Hadisələr birdən çox əhvalat ətrafında cərəyan edir. Real və irreal dünya vəhdətdə verilir. "Sehrbazlar dərəsi" romanı mürəkkəb süjetə malikdir. İlk baxışda anidən dəyişən əhvalatlar arasında əlaqəni müəyyən etmək çətindir. Əsərdəki hadisələr arasında bir qopuqluq, qırıqlıq müşahidə olunur. Oxucu əvvəldən sona qədər bir hadisəni deyil, eyni əsər daxilində şaxələnən bir neçə hadisəni izləməlidir. "Sehrbazlar dərəsi" romanının süjetindəki mürəkkəblik və hadisələr arasındakı keçidlər, qopuqluq postmodern mətnlərin əsas müəyyənedici elementləridir.

"Sehrbazlar dərəsi" romanında Şərq ruhu, adət-ənənələri, milli-mənəvi dəyərləri, bütövlükdə Şərq düşüncəsi aydın şəkildə özünü göstərir. Kamal Abdulla ustalıqla Qərb postmodernizmini Şərq elementləri ilə sintez etmişdir. Kamal Abdulla yaradıcılığında postmodernizm mifologiya, xalq yaddaşı, tarixi yaddaşdan qaynaqlanan simvolik qatlarla zəngindir. Bütün bunlar yazıçının əsərlərinin yalnız bədii elementini təşkil etmir, eyni zamanda onların fəlsəfi yükünü artırır. "Sehrbazlar dərəsi" romanının qoyulan problem kontekstində təhlili göstərir ki, Kamal Abdulla qələmində postmodernizm müasirliyin deyil, mifoloji təfəkkür və tarixin yenidən canlandırılmasıdır.

*İkinci fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb*[22].

---

[22] Ağababayeva, S.E. Çağdaş Azərbaycan postmodern nəsrində simulakr və simulasiya (Kamal Abdullanın "Sehrbazlar dərəsi" əsasında) // – Bakı: Poetika.izm (Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri), – 2022. №1, – s.143-149; Müasir Azərbaycan postmodern nəsrində ənənəvi "atalar və oğullar" problemi (Kamal Abdullanın "Sehrbazlar dərəsi" romanı əsasında) // – Bakı: AMEA M.Füzuli Adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2023. №9,

**“Latın Amerikası postmodern nəsrinin bədii xüsusiyyətləri”** adlı III fəsil iki paraqrafdan ibarətdir. ***“Latın Amerikası romanının “bum” dövrü – yeni Latın Amerikası romanı”*** adlı birinci paraqrafda Latın Amerikası ədəbiyyatının tarixi inkişaf mərhələlərinə nəzər yetirilmiş, 1960-70-ci illərdə baş verən, “bum” dövrü kimi tanınan ədəbi yüksəlişə diqqət cəlb edilmişdir. Eyni zamanda Latın Amerikası ədəbiyyatında “yeni roman”ın, həmçinin postmodernizmin təzahürünü şərtləndirən amillər barədə məlumat verilmişdir.

Latın Amerikası ədəbiyyatının inkişaf tarixinə nəzər saldıqda onun müstəmləkəçilik dövründən başlayaraq zəngin və çoxşaxəli bir yol keçdiyini görmək mümkündür. Latın Amerikası ölkələri ədəbiyyatı öz inkişaf tarixi müddətində müxtəlif dəyişikliklərə məruz qalmışdır. Bu dəyişikliklərin sonunda 1960-cı illərdə ədəbiyyatın inkişafını zirvə nöqtəsinə çatdıran mühüm bir hadisə baş vermiş, Latın Amerikası ədəbiyyatı öz inkişafının “bum” dönəminə qədəm qoymuşdur. “Bum” dönəmində formalaşan “yeni Latın Amerikası romanı” geniş oxucu kütləsinin diqqətini cəlb edərək bütün Latın Amerikası mütaliə dünyasında böyük maraq doğurmuşdur. Latın Amerikası “bum”unun “yeni roman”ı tarixi və xronoloji baxımdan bütövlükdə roman janrının inkişafında keyfiyyətcə yeni mərhələnin əksi kimi dəyərləndirilir. Qitədə meydana çıxan bu yeni ədəbiyyat anlamı reallığın əvvəlki yozumunun tam inkarı – gerçəkliyin əvvəlki

---

– s. 360-368; Postmodern ədəbiyyatda bədii zaman (Kamal Abdullanın “Sehrbazlar dərəsi” romanı əsasında) // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş “Azərbaycanşünaslığın aktual məsələləri: tədqiqat, elmi diskurs və beynəlmiləlləşmə” adlı beynəlxalq elmi konfransı, – Bakı Slavyan Universiteti: – 04-05 may, – 2023. – s.78-81; Artistic space in modern Azerbaijan postmodern prose (based on K. Abdulla's novel "Valley of wizards") // - Ukraine: Кременецькі компаративні студії: [науковий часопис / ред.: Д.Чик, О.Пасічник], – 2023. №12, – pp.122-131; Postmodernism in contemporary Azerbaijan prose: (based on Kamal Abdulla's novel “Valley of wizards”) // – Turkey: V International Anatolian Scientific Research Congress, – 2023. pp. 387; Postmodernizm və çağdaş Azərbaycan nəsri: milli postmodernizmin səciyyəvi xüsusiyyətləri (Kamal Abdullanın “Sehrbazlar dərəsi” romanı nümunəsində) // – Bakı: İpək Yolu, – 2024. №4, – s.87-98; Kamal Abdulla yaradıcılığında intertekstuallıq (“Sehrbazlar dərəsi” romanı əsasında) // Gənc Tədqiqatçıların IX Respublika elmi konfransı, – Azərbaycan Universiteti: – 11 mart, – 2026, – s.28-29.

təfsirindən imtina deyildi. Lakin yeni ədəbiyyat, yeni romanla bərabər təşəkkül tapan reallıq təsəvvürü XX əsrin əvvəllərində mövcud olan anlayışdan köklü şəkildə fərqlənirdi. Ədəbiyyatda baş verən bu dəyişiklik onun mahiyyətini ifadə edə biləcək yeni terminə ehtiyac yaratdı. Nəticədə Latın Amerikası ədəbi tənqidində bu anlayış "magik realizm" adı altında formalaşdı. Bəzi tədqiqatçılar magik realizmlə postmodernizmin təxminən eyni zamanda meydana gəldiyini iddia edirlər. Postmodernizm ilk olaraq Amerikanın şimalında, magik realizm isə Amerikanın cənubunda özünü göstərmişdir. Hətta magik realizm postmodernizmin bir xüsusiyyəti, bir hissəsi kimi iyerarxik olaraq ondan aşağıda qiymətləndirilmişdir. Əslində XX əsrin ikinci yarısından etibarən bütün dünyada postmodernizm adı altında müşahidə olunan fenomen Latın Amerikasında magik realizm idi. Eyni dönəmdə təzahür etmələrinə baxmayaraq postmodernizmin bir anlam olaraq daha çox populyarlıq qazanmasının səbəbini Şimali Amerikanın Latın Amerikası ilə müqayisədə imtiyazlı, nüfuzlu olması ilə əlaqələndirmək olar. Postmodernizm əsasən yeni ədəbi texnika kimi dəyərləndirilir, magik realizmə isə sehrli və mifik elementləri ilə ədəbiyyatda bir element kimi baxırdılar. Əslində sehrli realizmi yalnız fövqəltəbii və təbiini, sehrli ilə gerçək olanı, müəyyən və qeyri-müəyyəni qarşıdıran bir janr kimi məhdudlaşdırmaq olmaz. Magik realizm bir növ polifoniya, hibridlik, heterogenlik üçün zəmin hazırlayır. Məhz bu səbəbdən onu da vurğulamaq lazımdır ki, postmodernizmin daxilindəki ən diqqət çəkən xüsusiyyətlər magik realizmlə bağlıdır. Bu mənada Latın Amerikası ədəbi-bədii fikir tarixində magik realizmi postmodernizmin təzahürünün ilkin mərhələsi kimi dəyərləndirmək olar.

***"Xulio Kortasarın eksperimental nəsri – "Xana-xana oyunu" romanında dil və üslub "oyun"ları"*** adı ikinci paraqrafda Latın Amerikası postmodernizminin görkəmli nümayəndələrindən olan Xulio Kortasarın yaradıcılığı barədə ümumi məlumat verilmiş, Kortasarın eksperimental nəsrində özünəməxsusluğu ilə seçilən "Xana-xana oyunu" romanı qoyulan problem kontekstində ətraflı şəkildə təhlil olunmuşdur.

Xulio Kortasarın 1963-cü ildə işıq üzü görən "Xana-xana oyunu" romanını Latın Amerikası ədəbiyyatında üslub və məzmun baxımından postmodernizmin təcəssümü kimi dəyərləndirmək olar.

Klassik romanın müəyyən edilmiş bütün normalarını alt-üst edən "Xana-xana oyunu" innovativ xüsusiyyətləri baxımından Latın Amerikası ədəbiyyatında yeni səhifənin başlanğıcı kimi qiymətləndirilir. Zəngin problematikası ilə diqqət çəkən roman əsərlə oxucu arasındakı ənənəvi əlaqəyə fərqli prizmadan baxış nümayiş etdirir. "Xana-xana oyunu" romanı ilə Kortasarın fəal oxucu axtarışları yeni Latın Amerikası romanının əsas xüsusiyyətlərindən biri kimi diqqəti cəlb edir. Xulio Kortasarın "Xana-xana oyunu" romanı klassik roman, ənənəvi oxu strategiyasını dağıdaraq oxucunu fəsillər arasında labirintə salır. Fəsillərin ardıcıllığının pozulması romanın yenilikçi və eksperimental təhkiyəsinə səbəb olur. "Xana-xana oyunu" romanı ilə yanaşı Kortasarın digər əsər və hekayələrində öz əksini tapan eksperimental yazı üslubu Latın Amerikası ədəbiyyatının mənzərəsini tamamilə dəyişmişdir.

Xulio Kortasar "Xana-xana oyunu" romanını həm bədii, həm də linqvistik komponentləri baxımından oyun kimi tərtib etmişdir. Kortasara görə "həyat da şərtləri əvvəlcədən müəyyənləşdirilmiş oyundur". *"Kortasara görə oyun dünyanı yenidən qurmaq, reallığın dilini yenidən kodlaşdırmaq, adi norma və anlayışları tərsinə çevirmək üsuludur"* [23]. Postmodern fəlsəfənin əsas şüarlarından olan – konkret deyiləcək bir şey yoxdur – tezisi postmodernizmin ən mühüm xüsusiyyətlərini özündə əks etdirən "Xana-xana oyunu" romanında aydın şəkildə öz əksini tapır. Mürəkkəb ekzistensial dilemmalar, insanın məna axtarışları, daxili təlatümləri, nəticəsi olmayan davamlı axtarışlar romanın əsasını təşkil edir. Kortasarın eksperimental nəsrinin ən mükəmməl nümunələrindən olan "Xana-xana oyunu" unikal oxu təcrübəsi təklif edən yenilikçi bir romandır. Magik realizm, absurdizm və digər avanqard-modernist cərəyanların üsullarını da özündə cəmləşdirən "Xana-xana oyunu" romanı polifonik, polisemantik mətndir.

---

[23] Бобрик, Д.В. Постмодернистская концепция культуры в латиноамериканской литературе на примере «Игры в классики» Хулио Кортасара // – Теория и практика общественного развития, – 2012. № 8, – с. 38-41. с.39.

*Üçüncü fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb*[24].

**Tədqiqat zamanı aşağıdakı nəticələr əldə edilmişdir:**

1. Cəmiyyətin yeni reallıqlarına uyğun olaraq dəyişən və inkişaf edən ədəbiyyat postmodernizmin təzahüründən sonra öz ənənəvi funksiyasını itirmiş, daha geniş mənada postmodernizm bədii ədəbiyyatın estetikasını dəyişmişdir.

2. Tarixi keçmişi, ənənə və dəyərləri yeni baxış bucağından dəyərləndirən postmodernizmin klassik ədəbi-bədii nümunələrə olan münasibəti – onun sərbəstliyi meydana gəldiyi dövrün xüsusiyyətləri ilə sıx bağlıdır.

3. Postmodernizm, mütləq reallığın mövcudluğuna şübhə ilə yanaşaraq, dünyanın mənalı və vahid düşüncə ətrafında şərhindən imtina edir. Reallığı simulasiya kimi görən postmodernistlər gerçəkliyi oyun olaraq təqdim edirlər. Mətnin müxtəlif semantik çalarlarla simvolik bir oyuna çevrilməsi və oxucunun müəllifin oyun yoldaşı olması postmodern dönəm ədəbiyyatının əsas xüsusiyyətlərindəndir.

---

[24] Ağababayeva, S.E. Müasir postmodern nəsrdə insan konsepsiyası (Xulio Kortasarın "Xana-xana oyunu" romanı əsasında) // Doktorantların və gənc tədqiqatçıların XXV Respublika elmi konfransı (NASCO 25), – Bakı Ali Neft Məktəbi: – 23 – 24 noyabr, – 2022. – s.74-77; Latın Amerikası ədəbiyyatında postmodernizm (Xulio Kortasarın "Xana-xana oyunu" romanı əsasında) // Dil. Ədəbiyyat və Dilçilik fəlsəfəsi üzrə Beynəlxalq konfrans (İCPL 2020), – Xəzər Universiteti: – 02-03 dekabr, - 2022. – s. 67; Postmodernizm poetikasında oyun (Xulio Kortasarın "Xana-xana oyunu" romanı əsasında) // – Bakı: Dil və ədəbiyyat beynəlxalq elmi-nəzəri jurnal, – 2023. № 1(121). – s.134-136; Müasir Latın Amerikan postmodern nəsri (Xulio Kortasarın "Xana-xana oyunu" romanı əsasında) // Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məcmuə, – 2023. № 3. – s.110-116; Müasir postmodern ədəbiyyatda dil oyunu (Xulio Kortasarın "Xana-xana oyunu" romanı əsasında) // Bakı: Pedaqoji Universitetin Xəbərləri ISSN 2520 – 2014 Humanitar və ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2023. № 3(71), – s. 9-18; Latın Amerikası ədəbiyyatında "yeni roman" – "Xana-xana" oyunu // Doktorantların və gənc tədqiqatçıların XXVI Respublika elmi konfransı (NASCO 26), - Bakı Dövlət Universiteti: – 17-18 noyabr, – 2023, – s. 59-62; Postmodernizm və ədəbiyyat: çağdaş nəsrdə intellektual oxucu problemi (Xulio Kortasarın "Xana-xana oyunu" romanı əsasında) // – Bakı: Poetika.izm (Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri). Bakı, "Elm və təhsil". – 2024. № 2, – s. 92-101.

4. Müasir postmodern nəsr ilk növbədə dil və üslubda azmalar, deformasiyalarla xarakterizə olunur. Mövzu olaraq davamlı axtarış, şəxsiyyət problemi, fərdin daxilindəki təlatüm və çarpışmalar, cinayətlər, seksuallıq, modernizmə reaksiya, psixoloji problemlər və s. işlənilir. Postmodern mətnlərdə süjet, zaman və məkan arasında fasilələr, boşluqlar yaranır, polifonik diskurs isə ən vacib struktur elementlərdən biridir.

5. XX əsrin sonlarından etibarən Azərbaycan ədəbiyyatında təzahür edən postmodernizmin yerli ədəbiyyata gətirdiyi dəyişikliklər klassik ədəbiyyatın imkanlarına, eyni zamanda milli-mənəvi dəyərlərə zidd olduğu üçün tənqidlə qarşılansa da, bu üslubda yazılmış ədəbi-bədii nümunələrin təhlilə cəlb edilməsi postmodernizmə qarşı münasibəti dəyişir. Qərb postmodernizminin ümumi xüsusiyyətlərinə uyğun olaraq formalaşan milli postmodernizm özünəməxsus elementləri, fəlsəfi-estetik kateqoriyaları ilə orijinallıq nümayiş etdirir.

6. Milli postmodernizmin yaradıcılarından hesab olunan Kamal Abdullanın əsərləri intellektual ideyaları, dərin fəlsəfi məzmunu ilə müasir Azərbaycan nəsrində yeni bir mərhələnin təməlini qoymuşdur. Kamal Abdulla qərb postmodernizminin üslubi fəndlərindən məharətlə istifadə edərək onları milli-mənəvi dəyərlərimizlə uzlaşdırmışdır. Yazıçının qələmində Şərqin ənənəvi dəyərləri müasir bədii-estetik səviyyədə, tamamilə yeni üslubda təqdim olunmuşdur.

7. Dissertasiya işində qoyulan problem kontekstində tədqiqata cəlb edilən "Sehrbazlar dərəsi" romanına əsasən qeyd edə bilərik ki, postmodern nəsrin ana xüsusiyyətlərini özündə cəmləşdirən Kamal Abdulla əsərlərində tarixə, ənənəvi mövzulara müraciət, onların şərhi, zamanın xronoloji ardıcıllığının pozulması, zamandakı qeyri-müəyyənlik, bədii məkan, irreal dünyanın inandırıcı təsviri postmodern roman texnikası ilə məharətlə bədiiləşdirilmişdir. "Sehrbazlar dərəsi" romanı Qərb postmodernizminin ümumi xüsusiyyətlərini əxz edən Azərbaycan postmodern nəsrinin özünəməxsus elementləri, fəlsəfi-estetik kateqoriyaları ilə orijinal olduğunun əyani göstəricisidir.

8. Latın Amerikası ədəbiyyatının inkişafı müstəmləkəçilik dövründə ləngisə də, faşizm üzərində qələbədən sonra sürətlənmişdir. 1960-cı illərin "Latın Amerikası bum"u yeni bir ədəbi mərhələ

yaradaraq "yeni Latın Amerikası romanı"nı formalaşdırmışdır. Bu prosesin nəticəsi kimi "magik realizm" anlayışı ortaya çıxmış və ədəbiyyatda mühüm metodlardan birinə çevrilmişdir. Magik realizm və postmodernizm paralel şəkildə inkişaf etsə də, biri mifoloji və sehrli elementlərlə zəngin üslub, digəri isə yeni ədəbi texnika kimi qiymətləndirilmiş. postmodernizmin daxilindəki ən diqqət çəkən xüsusiyyətlərin magik realizmlə bağlı olması xüsusi vurğulanmışdır. Bu mənada, Latın Amerikası ədəbi-bədii fikir tarixində magik realizmi postmodernizmin təzahürünün ilkin mərhələsi kimi dəyərləndirmək olar.

9. Latın Amerikası ədəbiyyatında postmodernizmin təcəssümü kimi dəyərləndirilən "Xana-xana oyunu" romanı qeyri-xətii quruluşu və oxucuya təqdim edilən müxtəlif oxuma sxemləri ilə ənənəvi roman quruluşunu darmadağın edir. Romanda reallıq və yuxu, obyektivlik və subyektivlik arasındakı sərhədlər itir, xaotik və absurd dünyada mənaya çatmaq axtarışı ön plana çıxır. Kortasar bu romanı ilə klassik ədəbi priyomlara istehza edərək müasir oxucunun dünyagörüşünə, düşüncə tərzinə uyğun əsər yaratmağa müvəffəq olur.

10. 1960-cı illər həm Azərbaycan, həm də Latın Amerikası ədəbiyyatında yeni bir mərhələnin başlanğıcı olmuşdur. Azərbaycanda Stalinin ölümündən sonra yaranan dəyişikliklər ədəbiyyatın inkişafına da öz təsirini göstərmiş, xüsusilə nəsrdə şəxsiyyət və insan taleyi ön plana çıxmışdır. Eləcə də Latın Amerikası ədəbiyyatında müstəmləkəçilikdən sonra sürətli yüksəliş mərhələsi başlamış, milli dəyərlərlə Avropa eksperimental məktəbinin təcrübəsinin sintezindən orijinal üslub formalaşdırılmışdır. Məhz 60-cı illərdən etibarən Latın Amerikası romanı özünün partlayış – "bum" dönəmini yaşamağa başlamışdır.

Dissertasiya işində "Sehrbazlar dərəsi" və "Xana-xana oyunu" romanlarının qoyulan problem kontekstində təhlili onu deməyə əsas verir ki, postmodernizmin ümumi qəbul olunan xüsusiyyətləri ilə yanaşı, hər bir ölkənin ədəbi mühitində bu fenomen özünəməxsus keyfiyyətlər qazanmış, hər bir ədəbiyyatın öz milli-mədəni kodlarını da mənimsəyərək poetik düşüncəyə siraət etmişdir. Kamal Abdullanın "Sehrbazlar dərəsi" romanının qoyulan problem

kontekstində təhlili onu deməyə əsas verir ki, Qərb postmodernizminin ümumi xüsusiyyətlərini mənimsəməsinə baxmayaraq, yerli ədəbi mühitdə postmodernizm özünəməxsus keyfiyyətlərlə orijinal olmağa nail olmuşdur. “Sehrbazlar dərəsi” romanında “Xana-xana oyunu” romanından fərqli olaraq oyun konsepsiyasına demək olar ki, rast gəlmirik. Bu məqamda Kamal Abdullanın müsahibələrinin birində səsləndirdiyi fikri qeyd etmək yerinə düşər: “mən mətnlə “oynaya” bilərəm, süjetlə, obrazla, dilin müxtəlif variantlarıyla “oynaya” bilərəm, amma oxucumla oynamaram”. “Xana-xana oyunu” romanı isə adından da bəlli olduğu kimi bütünlüklə oyun konsepsiyası əsasında qurulmuşdur. Hər iki yazıçının yaradıcılığının tədqiqi nəticəsində ortaq cəhətlərin də mövcudluğunu müəyyən etmişik. Kamal Abdulla və Xulio Kortasar yaradıcılığında diqqəti cəlb edən ən mühüm ortaq xüsusiyyətlərdən biri mətnlərarası əlaqə – intertekstuallıqdır. Artıq qeyd etdiyimiz Kortasarın “Xana-xana oyunu” romanından sonra yazdığı əsərləri (“Yığım üçün 62-ci model” (1967), “Manuelin kitabı” (1973)) demək olar ki, “Xana-xana oyunu” ilə bağlı idi. Eləcə də Kamal Abdullanın bütün yaradıcılığı bir-birilə bağlı olan ümumi bir Mətn kimi qəbul edilir – ədib əvvəlki əsərlərindən obrazları, hadisələri qismən, bəzən isə tamamilə sonrakı əsərlərinə daxil etməklə onlara yeni məna çalarları qazandırır, onları yenidən dəyərləndirir. Həm Kamal Abdulla, həm də Xulio Kortasar əsərdə vahid süjet xətii anlayışını yox etməklə, hadisələrin xronoloji ardıcıllığını pozmaqla demək olar ki, klassik təhkiyə formalarını tamamilə darmadağın edir, mətnin açıq strukturlu, polifonik, dinamik xarakerinə diqqəti cəlb edirlər. Ədəbi diskursun sərhədlərini genişləndirən zəngin təxəyyül hər iki yazıçını birləşdirən ən önəmli xüsusiyyətdir. Həm Kamal Abdulla, həm də Kortasar yaradıcılığı üçün ümumi olan cəhət kimi hər iki yazıçının əsərlərində real dünya hadisələri ilə qeyri-adi hadisələrin, fantastik elementlərin bir-birinə qarışmasını, tez-tez real hadisələrdən xəyali dünyaya keçidin özünü göstərməsini qeyd etmək olar. Hər iki yazıçının yaradıcılığı intellektuallığı ilə seçilir. Hər iki ədibin qələmində mətn bir növ intellektual oyuna çevrilir, eləcə də çoxqatlı mənalar qazanır. Kamal Abdullanın milli, tarixi-mifoloji yaddaşa söykənən yaradıcılığı ilə Kortasarın eksperimental, başdan-başa oyun prinsipi üzərində qurulan yaradıcılığı arasında ən mühüm ortaq nöqtə

hər iki müəllifin oxucunu mətnin passiv müşahidəçisindən aktiv iştirakçısına çevirmək cəhdidir. Kamal Abdullanı, həmçinin Xulio Kortasarı anlamaq oxucudan xüsusi hazırlıq, peşəkarlıq tələb edir.

Bir sözlə, postmodernizmin ədəbiyyatda təzahüründən sonra müasir nəsr məzmun və forma baxımından tamamilə yeni keyfiyyətlər qazanmışdır.

**Dissertasiya işinin əsas məzmunu və müddəaları müəllifin aşağıdakı əsərlərində əks olunub:**


1. Postmodernizmin təşəkkül tarixinə ümumi baxış // Filoloji elmlər innovativ tədqiqatlar kontekstində, Beynəlxalq elmi-praktik konfrans, – Bakı Slavyan Universiteti: – 24 dekabr, – 2020, – s.24-26.
2. Postmodernizmə dair // Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda multidissiplinar Respublika elmi-praktik konfransı, – Qərbi Kaspi Universiteti: – 01 may, – 2021, – s.35-37.
3. N.Gəncəvi yaradıcılığında və postmodern ədəbiyyatda insan problemi // "Dil, cəmiyyət, şəxsiyyət və Nizami Gəncəvi yaradıcılığı" mövzusunda beynəlxalq elmi konfrans, – Sumqayıt Dövlət Universiteti: – 28-29 oktyabr, – 2021, – s.227-230.
4. Postmodernizmdə insan konsepsiyası // V. International Conference on Awereness Language and Awareness. Türkiyə: – 10-12 dekabr, – 2021, – s.261-264.
5. Postmodernizmdə "müəllifin ölümü" konsepsiyası // I Beynəlxalq Humanitar və İctimai Elmlərin Əsasları Konfransının Materialları, Azərbaycan Elm Mərkəzi: – 24 dekabr, – 2021, – s.173-175.
6. Postmodernizm ədəbiyyatında pastiş // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş Gənc tədqiqatçıların vı beynəlxalq elmi konfransı, – Bakı Mühəndislik Universiteti: – 29-30 aprel, – 2022, – s.1301-1303.

7. Postmodernizmdə simulasiya və simulakr anlamları // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “Azərbaycanşünaslığın aktual problemləri” XIII Beynəlxalq elmi-praktik konfrans, – Bakı Slavyan Universiteti: – 4-5 may, – 2022, – s.155-158.
8. Postmodern ədəbiyyatın özəllikləri // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş doktorantların və gənc tədqiqatçıların Respublika elmi-praktiki konfransı, – Odlar Yurdu Universiteti: – 5-6 may, – 2022, – s. 813-816.
9. Postmodernizm poetikasında rizom. Qloballaşma dövründə türk dünyası: çağırışlar, perspektivlər Beynəlxalq tələbə elmi konfransı, – Xəzər Universiteti: – 26-27 may, – 2022, – s.341-345.
10. Müasir postmodern nəsrdə insan konsepsiyası (Xulio Kortasarın “Xana-xana oyunu” romanı əsasında) // Doktorantların və gənc tədqiqatçıların XXV Respublika elmi konfransı (NASCO 25), – Bakı Ali Neft Məktəbi: – 23-24 noyabr, – 2022, – s.74-77.
11. Latın Amerikası ədəbiyyatında postmodernizm (Xulio Kortasarın “Xana-xana oyunu” romanı əsasında) // Dil, Ədəbiyyat və Dilçilik fəlsəfəsi üzrə Beynəlxalq konfrans (ICPL 2022), – Xəzər Universiteti: – 2-3 dekabr, – 2022, – s.67.
12. Postmodern ədəbiyyatda dil // Azerbaijani Oriental Studies in the Context of East-West Scientific-Cultural & Socio-Political Dialogue. International conference, – Bakı Dövlət Universiteti: – 14-15 dekabr, – 2022, – s.294-295.
13. Oyun anlamı postmodern ədəbiyyatın baxış bucağında // Qədim Diyar, Beynəlxalq onlayn elmi jurnal, İmpakt Faktor: 0.652. I Respublika Elmi konfransının materialları, – 16 dekabr, – 2022, – s.5-6.
14. Çağdaş Azərbaycan postmodern nəsrində simulakr və simulasiya (Kamal Abdullanın “Sehrbazlar dərəsi” əsasında) // – Bakı: Poetika.izm, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri. – 2022. №1, – s.143-149.

15. Postmodernizm poetikasında oyun (Xulio Kortasarın “Xana-xana oyunu” romanı əsasında) // – Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2023. №1(121), – s.134-136.
16. Müasir Azərbaycan postmodern nəsrində ənənəvi “atalar və oğullar” problemi (Kamal Abdullanın “Sehrbazlar dərəsi” romanı əsasında) // – Bakı: AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2023. №9, – s.360-368.
17. Müasir Latın Amerikan postmodern nəsri (Xulio Kortasarın “Xana-xana oyunu” romanı əsasında // – Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2023. №3, – s.110-116.
18. Müasir postmodern ədəbiyyatda dil oyunu (Xulio Kortasarın “Xana-xana oyunu” romanı əsasında) // – Bakı: Pedaqoji Universitetin Xəbərləri, Humanitar və ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2023. № 3(71), – s.9-18.
19. Artistic space in modern Azerbaijan postmodern prose (based on K.Abdulla's novel "Valley of wizards") // Кременецькі компаративні студії: [науковий часопис / ред.: Д.Чик, О.Пасічник]. – 2023. Вип. XII.172, – Volume XII. – s.122-131.
20. Latın Amerikası ədəbiyyatında “yeni roman” – “Xana-xana” oyunu // Doktorantların və gənc tədqiqatçıların XXVI Respublika elmi konfransı (NASCO 26). – Bakı Dövlət Universiteti: – 17-18 noyabr, – 2023, – s.59-62.
21. Postmodern ədəbiyyatda bədii zaman (Kamal Abdullanın “Sehrbazlar dərəsi” romanı əsasında)” // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cu ildönümünə həsr olunmuş “Azərbaycanşünaslığın aktual məsələləri: tədqiqat, elmi diskurs və beynəlmiləlləşmə” adlı beynəlxalq elmi konfransı, – Bakı Slavyan Universiteti: – 04-05 may, – 2023, – s.78-81.
22. Postmodernism in contemporary Azerbaijani prose: (based on Kamal Abdulla's novel “Valley of wizards”). 5. International Anatolian Scientific Research Congress, – Hakkari, Türkiyə: – 21-23 iyul, – 2023, – s.38.
23. Polyphony in literature – contemporary postmodern prose // – “Contemporary İssues of Literary Criticism Literatures of Small Countries and Challenges of the Modern Global World”

XVII İnternational Symposium, Georgia, Kutaisi: – 25-27 september, – 2024, – pp.25-26.

24. Postmodernizm və çağdaş Azərbaycan nəsri: milli postmodernizmin səciyyəvi xüsusiyyətləri (Kamal Abdullanın “Sehrbazlar dərəsi” romanı nümunəsində) // – Bakı: İpək Yolu, – 2024. № 4, – s.87-98.
25. Postmodernizm və ədəbiyyat: çağdaş nəsrdə intellektual oxucu problemi (Xulio Kortasarın “Xana-xana oyunu” romanı əsasında) // – Bakı: Poetika.izm, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri, – 2024. № 2, – s.92-101.
26. Polyphony in literature – contemporary postmodern prose (based on the novels "The Valley of Wizards" by Kamal Abdullah and "Hopscotch" by Julio Cortazar) // – Georgia, Tbilisi: Contemporary İssues of Literary Studies. Shota Rustaveli İnstitute of Georgian Literature, – 2024. №17, – pp. 653-659.
27. Disrupting the Canon: Postmodernism's Rejection of Modernism in Azerbaijani Literature // – United Kingdom, London: ICCEES XI World Congress. UCl - University College London, – 20-26 JULY, – 2025. – p.85.
28. Kamal Abdulla yaradıcılığında intertekstuallıq (“Sehrbazlar dərəsi” romanı əsasında) // Gənc Tədqiqatçıların IX Respublika elmi konfransı, – Azərbaycan Universiteti: – 11 mart, – 2026, – s.28-29.

Dissertasiyanın müdafiəsi __9 oktyabr__ 2026-cı il tarixində saat __14:00__ Bakı Slavyan Universiteti nəzdində fəaliyyət göstərən FD 2.13 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı ş., S.Rüstəm küçəsi, 33.

Dissertasiya ilə Bakı Slavyan Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Bakı Slavyan Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat __16__ __iyul__ 2026-cı ildə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.05.2026

Kağızın formatı: A5

Həcm: 39823 işarə

Tiraj: 100